# İstisna Siyahısı

Əlavə - İstisna (maliyyələşdirilməyən fəaliyyətlər) Siyahısı

A. Məcburi əməyin [2]və ya uşaqların [3]zərərli və ya istismar formalarının daxil olduğu istənilən fəaliyyət;
B. Azərbaycan Respublikasının qanunlarına və ya qaydalarına, və ya beynəlxalq konvensiyalara və sazişlərə uyğun olaraq qanunsuz hesab edilən, və ya beynəlxalq istifadədən çıxarılan və ya qadağan olunmuş əczaçılıq preparatları, pestisidlər/herbisidlər, ozondağıdıcı maddələr, PXD, digər təhlükəli kimyəvi məhsullar[4], CITES üzrə tənzimlənən vəhşi təbiət və ya vəhşi təbiət məhsulları, kimi hər hansı məhsulun istehsalı və ya ticarəti və ya bununla bağlı fəaliyyət;
C. Hərbiləşdirilmiş materiallar da daxil olmaqla silah, döyüş sursatı və hərbi texnika istehsalı və ya satışı;
D. Qumar, kazino və onlara bərabər tutulan fəaliyyət növləri
E. Borcalanın bu fəaliyyətlərdə əhəmiyyətli iştirak etmədiyi ("əhəmiyyətli iştirak etmədiyi" sözügedən fəaliyyətin borcalanın əsas əməliyyatlarına yardımçı olması deməkdir) hallar istisna olmaqla, aşağıdakı fəaliyyət növlərindən hər hansı biri:
    i. Tütün istehsalı və ya ticarəti
    ii. Spirtli içkilərin istehsalı və ya ticarəti (pivə və şərabdan başqa)
    iii. Valyuta və ya daşınmaz əmlak sövdələşmələri
    iv. İstənilən növ qiymətli kağızlara investisiya
F. Aşağıdakı fəaliyyət növlərindən hər hansı biri:
    i. Nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş vəhşi fauna və flora növlərinin beynəlxalq ticarət Konvensiyası (CITES) ilə tənzimlənən vəhşi heyvanların və ya vəhşi təbiət məhsullarının ticarəti;
    ii. Nüvə reaktorları və komponentləri daxil olmaqla radioaktiv materialların istehsalı və ya ticarəti (tibbi avadanlığın, keyfiyyətə nəzarət və ya ölçmə avadanlığının və radioaktiv mənbənin adi və/və ya düzgün şəkildə ekranlaşdırıldığı hər hansı bir avadanlığın alınmasından başqa;
    iii. Təhlükəli kimyəvi maddələrin əhəmiyyətli həcmdə istehsalı, ticarəti, saxlanması və ya daşınması və ya təhlükəli kimyəvi maddələrin kommersiya miqyasında istifadəsi portfeli Bankın ümumi kredit portfelinin 2%-ni keçərsə. Təhlükəli kimyəvi maddələrə benzin, kerosin və digər neft məhsulları daxildir;
    iv. Sərbəst asbest liflərindən istifadə, istehsal və ya ticarət edildikdə (tərkibində asbestin iyirmi faizindən (20%) az olduğu bağlı asbestosement təbəqələrdən başqa);
    v. Neftlə doldurulmuş elektrik transformatorları, kondensatorlar və 1950-1985-ci illərə aid paylayıcı qurğular kimi məhsullarda aşkar edilə bilən polixlorlaşdırılmış difenil (PXD) olan məhsulların istehsalı və ya ticarəti;
    vi. Beynəlxalq miqyasda istehsaldan çıxarma və ya qadağalara [5]məruz qalmış əczaçılıq preparatlarının istehsalı və ya satışı;
    vii. Beynəlxalq miqyasda istehsaldan çıxarma və ya qadağalara [6]məruz qalmış pestisidlərin/herbisidlərin istehsalı və ya satışı;

viii. Monreal protokolu ilə tənzimlənən Aerozollar, soyuducu maddələr, köpük agentləri, həllediciləр və yanğından mühafizə vasitələri kimi beynəlxalq miqyasda istehsaldan çıxarılmalı olan ozondağıdıcı kimyəvi birləşmələrin [7](ozon-dağıdıcı maddələr və ya ODM) istehsalı və ya ticarəti ;

ix. Xeyli sayda qeyri-sabit növlər və mühafizə olunan növlərə ziyan vuran və dəniz biomüxtəlifliyinə və sakinlərinə ziyan vuran iri miqyaslı pelagik drifter balıqtutma və xırdadeşikli əl toru ilə balıqtutma kimi dəniz və sahil balıqçılıq üsulları;

x. Yerli xalqların tam sənədli razılığı olmadan onlar tərəfindən onlara məxsus və ya məhkəmə qaydasında iddia etdikləri torpaqlara qəsd edən istehsalat və ya fəaliyyət;

xi. Pornoqrafiyanın istehsalı və ya ticarəti və ya mahiyyəti üzrə eyni xarakterli malların və ya xidmətlərin təmin edilməsi;

xii. Kommersiya meşəqırma əməliyyatları və ya ilkin tropik nəmli meşələrdə və ya toxunulmamış meşələrdə istifadə üçün meşəqırma avadanlıqlarının alınması;

xiii. Davamlı idarə olunan meşələrə aid olmayan ağac və ya digər meşə məhsullarının istehsalı və ya ticarəti;

xiv. Bazel Konvensiyası və əsas qaydalarla müəyyən edildiyi kimi, tullantıların və tullantı məhsullarının transsərhəd ticarəti;

xv. İrqçi və/və ya antidemokratik mətbuat

xvi. Heyvanlar üzərində test[8]

xvii. Genetik modifikasiya olunmuş orqanizmlər (GMO)[9]

xviii. "Siyasi və ya dini məzmun"lu layihələr

xix. Xüsusi mühafizəyə layiq ərazilərin məhv edilməsi və ya ciddi zərərə məruz qalması ilə əlaqələndirilə bilən investisiyalar (beynəlxalq standartlara uyğun adekvat kompensasiya olmadan)

xx. Kömürün axtarışı, kəşfiyyatı və mədənçiliyi; Əsasən kömür üçün istifadə olunan quru nəqliyyat vasitələri və əlaqəli infastruktur; Kömürlə işləyən elektrik stansiyaları, istilik məntəqələri və kogenerasiya qurğuları, eləcə də əlaqəli boru xətləri.

xxi. Bitumlu şistdən, bitumlu və ya neft qumlarından qeyri-ənənəvi üsullarla neftin axtarışı, kəşfiyyatı və hasılatı.

xxii. Su anbarlarının inşası, hansı ki, əhəmiyyətli və geri dönməz şəkildə: (a) bəndin yuxarı və ya aşağı axınında təbii ekosistemləri pozur; və ya (b) suyun tərkibini dəyişir; və ya (c) böyük torpaq ərazilərini su altında qoyur; və ya (d) biomüxtəlifliyə təsir edir; və ya (e) çoxlu sayda sakini (5000 nəfər və ya daha çox) köçürür; və ya (f) yerli sakinlərin dolanışıq vəsaiti qazanmaq qabiliyyətlərinə təsir edir.

xxiii. Məhkəmə və ya səlahiyyətli icra orqanı tərəfindən qeyri-qanuni monopoliya təcrübələri ilə məşğul olması müəyyən edilmiş şirkətlər.

xxiv. 6 U.S.C. 395(b) üzrə inversiya edilimiş korporasiyalar kimi qəbul edilən şirkətlər.

xxv. UNESCO-nun Ümümdünya İrsləri siyahısındakı https://whc.unesco.org/en/list/ obyektlərə olan təsirlər, aşağıdakılar istisna olmaqla: ətraf mühitin qiymətləndirilməsi ilə layihənin (i) qorunan ərazinin deqredasiyasına səbəb olmayacağını və (ii) müsbət ətraf mühit və sosial təsirləri olduğunu göstərmək mümkündürsə.

xxvi. Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (IUCN) tərəfindən müəyyən edilmiş I, II, III və IV kateqoriyalara (Ciddi mühafizə olunan Təbiət Qoruqları/Vəhşi Təbiət Əraziləri və Milli Parklar, Təbii Abidələr və Mühit/Növlərin İdarə olunma Əraziləri) aid olan mühafizə olunan ərazilərə təsir və ya həmin ərazilərdə hasilat və ya infrastruktur. IUCN-nin V (Qorunan Landşaft/Dəniz Landşaftı ) və VI (İdarə olunan Resursların Qorunma Əraziləri) kateqoriyalarına aid olan layihələr, IUCN idarəetmə məqsədlərinə uyğun olmalıdır (https://www.protectedplanet.net), aşağıdakılar istisna olmaqla: (i) mühafizə olunan ərazidə heç bir deqradasiya yoxdur və (ii) müsbət ekoloji və sosial faydalar mövcuddur.

[2] BƏT

[3] eyni mənbədən.

[4] Təhlükəli kimyəvi maddələrin siyahısını http://www.pic.int. səhifəsindən əldə etmək olar

[5] İstehsalatdan çıxarılmalı və ya qadağan edilməli olan əczaçılıq məhsullarının siyahısı aşağıdakı ünvanda mövcuddur http://www.who.int

[6] İstehsalatdan çıxarılmalı və ya qadağan edilməli olan pestisid və herbisidlərin siyahısı aşağıdakı ünvanda mövcuddur http://www.pic.int.

[7] stratosfer ozonla reaksiyaya girən və onu dağıdan və nəticədə geniş reklam olunan ozon deşiklərinin yaranmasına səbəb olan kimyəvi birləşmələrin siyahısı hədəf azalma və istehsaldan çıxarılma tarixləri ilə birlikdə Monreal protokolunda verilmişdir. Məlumat http://www.unep.org/ozone/montreal.shtml səhifəsindən əldə oluna bilər.

[8] Milli qanunvericilik - http://e-qanun.az/alpidata/framework/data/3/c_f_3850.htm

[9] Milli qanunvericilik - http://www.e-qanun.az/framework/23056 - Article 21

**Tarix**: 05.12.2024

**Müşahidə Şurası:**

Oleg Ivaniychuk
Müşahidə Şurasının Sədri

Azərbaycan Respublikası "Access Bank" QSC Access Bank

Azərbaycan Respublikası • Access Bank •
“Access Bank” QSC